Yazan
27.11.13 21:47 -



Avropa Azərbaycan Cəmiyyətinin (AAC) Belçikadakı nümayəndəliyinin təşkilatçılığı ilə Avropa Parlamentindəki Azərbaycanın Dostları Qrupunun üzvlərinin iştirakı ilə seminar keçirilmişdir.
AAC-dan AzərTAc-a bildirilmişdir ki, seminarın məqsədi Azərbaycanın NATO qarşısındakı öhdəliyinə dair informasiya və fikir mübadiləsi aparmaq, əməkdaşlığın perspektivlərini müzakirə etmək olmuşdur.
Seminarda NATO-nun hazırkı fəaliyyəti və perspektivləri, Avropa İttifaqı-Azərbaycan əməkdaşlığında Alyansın rolu, Azərbaycan-NATO dialoqunda rəsmi Bakının mövqeyi kimi məsələlər müzakirə olunmuşdur.
Bildirilmişdir ki, Azərbaycan NATO-nun ən ümidverici və etibarlı tərəfdaşları arasındadır və hazırda Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə töhfə verir.
Avropa Parlamentinin Slovakiyadan olan deputatı Katarina Nevedalova demişdir ki, qurumun üzvləri Cənubi Qafqazdakı, xüsusilə də Azərbaycandakı inkişafdan xəbərdardırlar. Avropa ilə Azərbaycan arasında informasiya mübadiləsini intensivləşdirmək və yeni müstəviyə çıxarmaq lazımdır.
Azərbaycanın NATO yanında daimi nümayəndəliyinin rəhbəri Xəzər İbrahim cari əlaqələrin icmalını vermiş, NATO-nun və Azərbaycanın demokratik, institusional və müdafiə islahatlarında fəal əməkdaşlıq etdiyini söyləmişdir. O qeyd etmişdir ki, ötən 10 ildə tərəflər arasında mülki müdafiənin planlaşdırılması, elmi mübadilə, ətraf mühitin mühafizəsi və ictimai informasiya kimi sahələrdə əməkdaşlıq həyata keçirilmişdir. Azərbaycan NATO-nun ən etibarlı tərəfdaşlarından biri kimi qəbul olunur. Azərbaycanın NATO ilə dialoqu sadəcə müxtəlif missiyalar zamanı insani və təchizat dəstəyini təmin etmək kimi siyasi öhdəlikdən ibarət deyildir. Azərbaycan mənəvi və hüquqi məsələləri əhatə edən planlarda da fəal iştirak edir.
Azərbaycanın Belçikadakı səfiri və Avropa İttifaqı yanında nümayəndəliyin başçısı Fuad İsgəndərov və Avropa Parlamentinin Latviyadan olan deputatı İnes Vayder çıxışlarında

ölkəmizin NATO ilə əməkdaşlığından danışmışlar.
AAC-ın Belçikadakı nümayəndəliyinin rəhbəri Roman Huna bildirmişdir ki, NATO Azərbaycanın öz etibarlılığını və əməkdaşlıq sahəsində yaradıcı mövqeyini nümayiş etdirdiyi ən qabaqcıl beynəlxalq təşkilatlardan biridir. Azərbaycanın sülhməramlı əməliyyatlara verdiyi töhfələr beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.